

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 96 (20.997)

22 may 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Mayın 21-də Şanxayda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Dördüncü Zirvə Toplantısı keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə Toplantısında iştirak etmişdir.

Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, həmçinin digər dövlət və hökumət başçılarını qarşıladı.

Dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.

Sonra Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Dördüncü Zirvə Toplantısının birinci iclası keçirildi.

İclası açıq elan edən Çin Xalq Respublikasının Sədri Si Cinpin nümayəndə heyətlərinin başçılarını salamladı. O, Zirvə Toplantısının əsas müzakirə mövzularının regionda və dünyada beynəlxalq təhlükəsizlik məsələlərinə həsr edildiyini vurğuladı.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda çıxış etdi.

Şanxay Zirvə Toplantısında Bəyannamə qəbul edildi.

Bəyannamədə Azərbaycan üçün önəmli olan müddəalar əksini tapmışdır.




## Əlahiddə Ümumqoşun Ordusu Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinin qarantıdır

*Müstəqil Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanmaqla, iqtisadi və siyasi nailiyyətlərə imza atmaqla yanaşı, ordu quruculuğu prosesində də ardıcıl uğurlar əldə etmişdir. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycan Cənubi Qafqaz regionunun ən qüdrətli ordusuna malik güclü dövlətə çevrilmişdir. Müasir texnika və silahlarla tam təchiz olunmuş silahlı qüvvələrimiz artıq qarşıda duran bütün vəzifələri yerinə yetirməyə hazır möhtəşəm bir gücə malikdir.*

Azərbaycanda ordu quruculuğu prosesi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimiz hələ Sovet İttifaqı dönəmində yüksək hərbi təhsil almış milli zabit kadrların yetişdirilməsinə xüsusi əhəmiyyət verirdi. Məhz onun ciddi səyləri nəticəsində 1971-ci ildə Bakı şəhərində gəncləri ali hərbi məktəblərə hazırlayan ilk təhsil ocağı olan ixtisaslaşdırılmış hərbi internat məktəbi açılmışdı. Bir müddət sonra bura Cəmşid Naxçıvanskinin adı verilmişdi.

Həmin dövrdə Bakıda iki ali hərbi məktəb – Ali Ümumqoşun Komandirləri və Hərbi Dəniz Donanmasının Ali Hərbi Dənizçilik məktəbləri olsa da, burada təhsil alan 300 nəfərdən yalnız 3-5 nəfəri azərbaycanlı idi. Bu ali məktəblərdə təhsil alanlar, əsasən, Rusiya, Belarus, Ukrayna, Gürcüstan, Ermənistan və digər ölkələrdən gəlmiş gənclər idi. Maraqlıdır ki, burada azərbaycanlıların təhsil almaları müxtəlif yollarla əngəllənirdi. O vaxt görkəmli dövlət xadimi Heydər Əliyevin nüfuzu, siyasi uzaqgörənliyi və qətiyyəti sayəsində bu ədalətsizlik aradan qaldırıldı. Azərbaycanlı gənclərin hərbi-vətənpərvərlik ruhunda yetişmələri üçün orta məktəblərdə ibtidai hərbi hazırlıq fənləri tədris olundu. Hər il 800-900 nəfər azərbaycanlı gənc Rusiyanın və digər postsovet ölkələrinin nüfuzlu ali hərbi məktəblərində təhsil almağa göndərildi. Bu gün sovet dövründə yetişmiş yüksək biliyə və təcrübəyə malik həmin kadrlar, eyni zamanda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin yetişdirdiyi komandir heyəti ordumuzun daha da güclənməsində öz səylərini əsirgəmirlər.

Bu il mayın 19-da Əlahiddə Ümumqoşun Ordusunun komandan heyətinə təyinatlar və hərbi hissələrə döyüş bayraqlarının verilməsi münasibətilə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov yuxarıda qeyd etdiyimiz faktları bir daha xatırladaraq bildirmişdir ki, müstəqil Azərbaycan Respublikasının ordu quruculuğu prosesi ulu öndərimiz Heydər Əliyev tərəfindən məhz Naxçıvanda başlanılmışdır. Ali Məclisin Sədri demişdir: ***"Ümummilli liderimizin rəhbərliyi ilə Azərbaycanın milli dövlətçiliyinin bərpası Naxçıvandan başlandığı kimi, milli ordu quruculuğu da 1991-ci ildə Naxçıvandan başlanmışdır. Böyük dövlət xadimi Naxçıvan Muxtar Respublikasının rəhbəri seçiləndən cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də muxtar respublikanın müdafiəsinin təşkili ilə bağlı mühüm qərarlar qəbul etmiş, mövcud hərbi hissə və dəstələrə vahid rəhbərliyin əsasını qoymuşdur. Bu dövrdə yaradılan ilk milli ordu qurumlarından biri də 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada idi. 1993-cü ildə ali hakimiyyətə qayıdan ümummilli liderimiz Azərbaycan Silahlı Qüvvələrinin yaradılması istiqamətində davamlı tədbirlər görmüşdür. Blokada şəraitində və düşmən dövlətlə sərhəddə yerləşən Naxçıvanın müdafiəsi də diqqətdə saxlanılmış, motoatıcı briqadanın bazasında diviziya, sonra isə ordu korpusu yaradılmışdır".***





1993-cü il noyabrın 18-də ulu öndər Heydər Əliyevin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisində ordu quruculuğu işinin sistemləşdirilməsi, mərkəzləşdirilməsi istiqaməti əsas götürülərək müəyyən qanunlar qəbul olunmuşdur. "Silahlı Qüvvələr haqqında", "Müdafiə haqqında", "Hərbi xidmət haqqında", "Hərbi qulluqçuların statusu haqqında" qanunların qəbul edilməsi milli təhlükəsizlik siyasəti və strategiyasının həyata keçirilməsində hüquqi baza rolunu oynamışdır. Milli Məclisin 2010-cu il 8 iyun tarixli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hərbi doktrinası" çox mühüm hərbi-strateji sənəd kimi diqqəti cəlb edir. "Hərbi doktrina" hərbi təhlükəsizliyə təhdidlərin vaxtında aşkarlanması, təhlil edilməsi, qiymətləndirilməsi, qarşısının alınması, səmərəli hərbi təhlükəsizlik sisteminin yaradılması və digər mühüm məsələlərlə bağlı respublikamızın mövqeyini əks etdirir. Bu baxımdan Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinin daha etibarlı qorunması məsələsi də doktrinanın müəyyənləşdirdiyi meyarlar çərçivəsində həyata keçirilir.

Müasir dövrün reallıqlarını nəzərə alan dövlət başçımız, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev təkcə ölkəmiz üçün deyil, ümumilikdə, Cənubi Qafqaz regionu və bütün türk dünyası üçün mühüm strateji məkan kimi böyük əhəmiyyət kəsb edən Naxçıvanın müdafiə qabiliyyətinin artırılması üçün çox mühüm qərarlar qəbul etmişdir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən, 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusu yaradılmışdır. Bu, ölkəmiz üçün çox mühüm hadisə idi. Çünki bununla Naxçıvanın müdafiə qabiliyyəti daha da artır, bir mərkəzdən idarəetmə təkmilləşdirilir ki, nəticədə, daha effektiv müdafiə sistemi qurulmuş olur.

Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev qədim diyarda Əlahiddə Ümumqoşun Ordusunun yaradılması barədə danışarkən demişdir: ***"Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır".***

Bu gün dahilər yurdunda Əlahiddə Ümumqoşun Ordusunun döyüş qabiliyyətinin artırılması, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, xidmətin nümunəvi təşkili, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür.

Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq, bu il yanvarın 29-da Əlahiddə Ümumqoşun Ordusunun hissə və bölmələrinin komandan heyətinə 15 ədəd "Mitsubishi-PAJERO" və 10 ədəd "UAZ" markalı xidməti avtomobillər, bu ayın 19-da 11 "Mitsubishi L-200", 2 "FİAT" markalı xidməti avtomobil, 2 "Ford" markalı səyyar tibbi yardım və 1 rentgen flüoroqrafiya avtomobili verilmişdir.

Əlahiddə Ümumqoşun Ordusunun maddi-texniki bazasının möhkəmləndirilməsi ölkə rəhbərinin daim diqqət mərkəzindədir. Dövlət başçısının bu ilin aprel ayında Naxçıvan Muxtar Respublikasına səfəri ərəfəsində muxtar respublikadakı hərbi hissələrə yeni, ən müasir standartlara uyğun hərbi-texniki və silah-sursatın verilməsi bunun parlaq ifadəsidir.

Əlahiddə Ümumqoşun Ordusunun komandan heyətinə təyinatlar və hərbi hissələrə döyüş bayraqlarının verilməsi münasibətilə mayın 19-da keçirilən tədbirdə qeyd edildiyi kimi, Azərbaycan Ordusunu təkmilləşdirmək, ordunun döyüş və peşəkarlıq səviyyəsini artırmaq sahəsində ümummilli liderimizin başladığı iş bu gün Azərbaycan Prezidenti tərəfindən uğurla davam etdirilir. Ordumuzun döyüş qabiliyyəti yüksəldilir, maddi-texniki bazası möhkəmləndirilir, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası ərazisindəki hərbi hissələrin maddi-texniki təminatı və hazırlıq səviyyəsi müasir tələblər nəzərə alınaraq gücləndirilmiş, vaxtında lazımi tədbirlər görülmüşdür.

Bir məqama da diqqət çəkmək istərdik. Mayın 19-da Naxçıvan şəhərindəki "N" hərbi hissədə Əlahiddə Ümumqoşun Ordusuna və bu ordunun yeni yaradılan hərbi hissələrinə döyüş bayraqları təqdim olunmuşdur. Bu, xüsusi məna daşıyan çox əhəmiyyətli bir hadisədir. Çünki dünyanın hərb tarixindən də məlum olduğu kimi, döyüş bayraqları o bayrağın sancıldığı məkanı, torpağı öz gücü, qüdrəti ilə qorumağa qadir olan şərəfli hərbi birliklərə təqdim olunur. Bu gün Əlahiddə Ümumqoşun Ordusu düşməni qorxuya salan məhz belə bir hərbi gücə çevrilmişdir.

*Bəlkə də, bu səbəbdən Azərbaycanın bütün hərbi ekspertlərinin ümumi rəyi belədir ki, yüksək döyüş hazırlığı baxımından müasir dünya ordularından heç də geri qalmayan Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordusu muxtar respublikanın təhlükəsizliyinin qarantıdır. Bu gün ermıni işğalçılarının başı üstündə asılan "Damokl qılıncı" adlandırılan Naxçıvan ordusu Ali Baş Komandanın bütün əmrlərini hər an layiqincə yerinə yetirməyə hazırdır.*

**Rauf ƏLİYEV**

## "SABAH" qrupları ilə bağlı təqdimat keçirilib

Ali təhsildə təhsilin keyfiyyətinin yüksəldilməsi, müasir tələblərə uyğun kadr hazırlığının təmin edilməsi və ali təhsil sistemində yeni mühitin yaradılması məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin qərarı ilə ali təhsil müəssisələrində növbəti tədris ilindən başlayaraq savadlı, bacarıqlı və hazırlıqlı (SABAH) tələbələrdən ibarət qruplar yaradılacaq.

Digər ali təhsil müəssisələrində olduğu kimi, Naxçıvan Dövlət Universitetində də "SABAH" qrupları ilə bağlı təqdimat keçirilib. Tədbirdə universitetin rektoru, professor Saleh Məhərrəmov çıxış edərək ölkəmizdə təhsilə göstərilən yüksək qayğıdan danışıb, "SABAH" qruplarının yaradılmasının əhəmiyyətini açıqlayıb.

Qeyd olunub ki, bu qrupların yaradılmasında əsas məqsəd azərbaycanlı tələbələrin xarici ali məktəblərdəki tələbələrlə əməkdaşlığına nail olmaqdan və tədris proqramlarının təkmilləşdirilməsindən ibarətdir. "SABAH" qrupuna il ərzində qiymətlərinin orta göstəricisi 61-dən aşağı olmayan I kursu başa vurmuş tələbələr seçiləcəklər. "SABAH"a qəbul olmaq istəyən tələbə bunun üçün 3 mərhələdən keçməlidir: www.sabah.edu.az saytında elektron qeydiyyata düşmək, 25-i xarici dildən olmaqla, 50 sualdan ibarət "SABAH" imtahanı vermək və sonda müsahibə mərhələsi. Bu mərhələləri daha yüksək nəticə ilə keçənlər "SABAH" qrupunun tələbələri olacaqlar və ikinci kursdan etibarən ixtisaslarına uyğun ali təhsil müəssisələrində təhsillərini davam etdirəcəklər. "SABAH" qrupları seçilmiş ixtisasın ən yaxşı tələbələrinin və bu ixtisası ən keyfiyyətlə tədris edən müəllimlərin görüşdüyü məkan olacaq. Qrupun məzunu öz ixtisasını ana dili ilə yanaşı, ingilis dilində də mükəmməl biləcək. Qrupun fərqlənən tələbələri xarici ölkələrə təcrübəyə göndəriləcəklər.

Sonda tələbələrin qrupun fəaliyyəti ilə bağlı sualları cavablandırılıb.

**Mina QASIMOVA**




# İqtisadiyyat







## Sürətlə yenidən qurulan Şərur

### *Bölgənin quruculuq xəritəsində yeni ünvanların sayı artır*





***Bu yazını hazırlayarkən yadıma muxtar respublikanın ucqar dağ kəndlərinin birində həmsöhbət olduğum ağsaqqal bir ziyalının dedikləri düşdü:***

– Televizoru açırsan, diyarımızın hansısa kəndində yeni bir obyektin istifadəyə verildiyini görürsən. Qəzetləri vərəqləyirsən, yenə də eləcə. Bütün bunlar muxtar respublikada inkişafın bariz göstəriciləridir. Ömrümün çoxunu sovet dönəmində yaşamışam. O illərdə görülən işlərlə bu gün görülən işləri heç müqayisə etmək olmaz. Həm kəmiyyət, həm də keyfiyyət baxımından.

Naxçıvanın sürətli sosial-iqtisadi inkişafını aprel ayının 8-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə çıxış edən ölkə Prezidenti cənab İlham Əliyev də yüksək qiymətləndirdi: ***"Naxçıvan... sürətlə inkişaf edir. Naxçıvanda bütün məsələlər uğurla icra edilir. Bu səfər mənim Naxçıvana son 10 il ərzində 11-ci səfərimdir. Demək olar ki, hər il Naxçıvana gəlirəm, burada gedən inkişafla tanış oluram və çox sevinirəm. Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır.***

***Dünən son bir il ərzində Naxçıvanda görülən işlərlə bir daha tanış olarkən gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün nə qədər böyük sevgi ilə, diqqətlə səylər göstərir. Bütün bu uğurlar münasibətilə naxçıvanlıları ürəkdən təbrik edirəm".***

Bu gün muxtariyyətinin 90 illiyini qeyd etdiyimiz qədim diyarımızın hər bir ünvanı çiçəklənən bir diyardan soraq verir. "Muxtariyyət ili"ndə isə bu gözəlliyə səbəb olan quruculuq işlərinin, abadlıq tədbirlərinin həcmi daha da artıb. Naxçıvan şəhərindən tutmuş ən ucqar dağ və sərhəd kəndlərinədək quruculuq tədbirləri geniş vüsəti ilə diqqəti çəkir. Bu il muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda da quruculuq tədbirlərinin həcmi xeyli artıb. Rayon mərkəzində, Cəlilkənd, Kürkənd, Diyadin, Püsyan, Dizə yaşayış məntəqələrində kompleks quruculuq tədbirləri həyata keçirilir. Bu günlərdə həmin quruculuq obyektlərində olduq.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsinin bir qrup inşaatçısı Şərur şəhərinin Nəriman Nərimanov küçəsindəki 18 mənzilli yaşayış binasının yenidən qurulması ilə məşğuldur. Yeni layihəyə əsasən, binanın mənzil sahəsinin artırılması nəzərdə tutulub. Adıçəkilən idarənin inşaatçıları digər quruculuq tədbirlərində də fəallıq göstərirlər. Rayon mərkəzində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Qeydiyyat, imtahan və texniki baxış şöbəsinin Şərur rayonlararası müayinə və diaqnostika mərkəzi üçün yeni bina inşa olunur, əltopu oyunları idman meydançası təmir edilir. Yuxarıda məlumat verdiyimiz kimi, rayonun bir neçə kənd yaşayış məntəqəsində də tikinti işləri həyata keçirilir.

Belə tədbirlərdən biri yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin Cəlilkənddəki fəaliyyətini özündə əks etdirən muzey üçün yeni binanın inşa olunmasıdır. Məlumat üçün bildirək ki, mövcud muzey binası sökülərək müasir arxitektura üslubunda tikilmiş yeni binada əsas inşaat işləri başa çatdırılıb. Hazırda muzeyin daxilində işlər davam etdirilir. Muzey binasına yaxın ərazidə isə xidmət mərkəzi inşa olunur. Kəndin mədəniyyət evinin binası da yenidən qurulur.

Kürkənddə üç mərtəbədən ibarət 216 şagird yerlik məktəb binası, xidmət və kənd mərkəzləri, Diyadində üç mərtəbədən ibarət 88 şagird yerlik məktəb binası və kənd mərkəzi tikilir, Püsyanda 630 şagird yerlik məktəb binası, həkim ambulatoriyası və kənd mərkəzi, Dizədə kənd məktəbi yenidən qurulur, həmin yaşayış məntəqəsində kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası inşa olunur. Bir məsələni də xatırlamağı vacib sayırıq. Muxtar respublikada son 18 ildə gedən tikinti proseslərində müşahidə etmişik ki, həyata keçirilən quruculuq tədbiri hansı sahəni əhatə etməsindən asılı olmayaraq, yeni obyektin yerləşdiyi ərazidə yaşıllıq zolaqları, gülkarlıqlar salınır, həmin ünvana daimi su xətti çəkilir, fərdi qazanxana sistemi quraşdırılır və nəhayət, yaşayış məntəqəsindəki yollar müasir standartlar səviyyəsində yenidən qurulur. Sözsüz ki, bəhs etdiyimiz yeni obyektlərin inşası başa çatdıqdan sonra həmin işlər də görüləcəkdir.

Yeni obyektlər haqqında qısaca məlumat verməklə kifayətlənirik. Bu obyektlərə şərurluların münasibətini öyrəndik. Cəlilkəndli ziyalı **Mahmud Musayevin** dediklərindən:

– Şərurlular çətinliyə dözməyi bacaran insanlardır. Buna baxmayaraq, ötən əsrin 90-cı illərinin əvvəllərində onların da bəzilərində ruh düşkünlüyü sezilirdi. Belələrini qınamaq da olmurdu. Niyə? Məktəb binaları yararsız vəziyyətdə idi, təhsil ocaqları uyğunlaşdırılmış binalarda yerləşdirilmişdi. Səhiyyə xidməti unudulmuşdu, müasir informasiya texnologiyalarından istifadə barədə söhbət etməyə dəyməzdi. Elektrik enerjisi, yanacağın olmaması isə ən böyük dərdlərimizdən idi. Xidmət sahələrinin fəaliyyətini yox səviyyəsində saymaq olardı. Bu gün muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Şərur rayonunda da böyük quruculuq işləri həyata keçirilir. Sevinirik ki, bu gün Şərurun da problemləri öz həllini tapıb. Bütün bunlar dövlətimizin öz vətəndaşlarına böyük qayğısının ifadəsidir. Belə qayğı isə insanları yaşadıqları torpağa daha sıx tellərlə bağlayır, onların qurub-yaratmaq əzmini daha da gücləndirir.

Uzun illər Dizə kənd inzibati ərazi dairəsi üzrə nümayəndə vəzifəsində çalışmış, hazırda təqaüddə olan **İslam Vəliyev** dedi:

– Son 18 ildə müxtəlif dövlət proqramlarının muxtar respublikamızda ardıcıllıqla, uğurla həyata keçirilməsi, digər bölgələr kimi, bu rayona da canlanma gətirib. Bu gün Şərurda elə bir sahə yoxdur ki, orada inkişaf, dirçəliş, yüksəliş meyilləri hiss olunmasın. Təkcə Şərur şəhərinin deyil, ucqar kəndlərin belə, siması dəyişilib. Son illərdə quruculuq işlərinin həcmi daha da artıb, miqyası genişlənib. Rayonun elə bir yaşayış məntəqəsi yoxdur ki, quruculuq prosesi ağuşunda görkəmini dəyişməsin, orada sosialtəyinatlı tədbirlər həyata keçirilməsin. Bu müddətdə neçə-neçə kənddə yeni təhsil, səhiyyə, mədəniyyət obyektləri inşa olunub, yollar çəkilib, körpülər salınıb, su, elektrik təsərrüfatı yaxşılaşdırılıb. Görülən işləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ölkəmizdə bərqərar olunmuş sabitlik və sürətli sosial-iqtisadi inkişafla əlaqələndirərək belə xarakterizə edir: ***"Bu gün ölkəmizdə aparılan uğurlu sosial-iqtisadi islahatlar bütün sahələrin inkişafına səbəb olmuşdur. Bu istiqamətdə həyata keçirilən tədbirlər muxtar respublikada da uğurla davam etdirilir... Əhalinin rahatlığı üçün lazımi şərait yaradılır, insanlar hərtərəfli qayğı ilə əhatə olunur, yeni sosial obyektlər tikilərək istifadəyə verilir, fərdi təsərrüfatların genişləndirilməsi üçün lazımi dövlət dəstəyi göstərilir. Bütün bunların həyata keçirilməsi ölkəmizdə Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsində mümkün olmuşdur".***

Müəllimə **Bəsti Zamanova** Cəlilkənd tam orta məktəbində işləyir. Onun da deməyə ürək sözü çoxdur:

– Cəlilkənddəki ictimai təsərrüfat muxtar respublikanın ən varlı təsərrüfatlarından biri olub. Ancaq nə fayda? Kənd adamları o dövrdə nə qədər zəhmət çəksələr də, qazandıqları ilə öz gün-güzəranlarını bir təhər qururdular. İndi torpağın sahibi olan hər bir cəlilkəndli daha yaxşı yaşayır. Əkir, becərir, həm özünü yaşadır, həm də daxili bazara töhfəsini verir...

Müəllimə onu da vurğulayır ki, quruculuq tədbirləri bütün muxtar respublikamızı öz ağuşuna alıb. Yəni Naxçıvanın bütün bölgələri yenidən qurulur, gələcəyə inamlı addımlarını atır. Bu addımlar getdikcə daha da möhkəmlənir.

**Həmsöhbətlərim çox oldu. Hamısını diqqətlə dinlədim. Ancaq onların söhbətlərinin bir qəzet yazısına sığmayacağını düşünüb bir-iki əsas məqamı oxuculara çatdırmaq qərarına gəldim. Birincisi, görülən işlərə minnətdarlıq hissləri. Böyük səmimiyyətlə ifadə olunan belə hisslər təbiidir. Çünki kənd adamı uzun illər həsrətində olduğu gün-güzərana qovuşduğunu görür və dərindən dərk edir ki, bütün bunlar onun üçündür. Onun yaxşı yaşaması üçündür.**

**İkinci məqam mahiyyət etibarilə elə birinci məqamdan qaynaqlanır. Yəni söhbətlərdən başa düşdüm ki, bu söhbətlərdən bir qırmızı xətt kimi keçən muxtar respublikada ulu öndər Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsi, bu siyasətə böyük sevgi və məhəbbət göstərilməsidir.**

**Muxtar MƏMMƏDOV**

## "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi"ndə istehsal olunan məhsullara tələbat artır

***"Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Naxçıvan şəhərində, Babək rayonunun Araz və Kəngərli rayonunun Qarabağlar kəndlərində istehsal müəssisələri, Kəngərli rayonunun Qarabağlar və Çalxanqala kəndlərinin ərazilərində isə daş karxanaları fəaliyyət göstərir.***




Daş karxanalarının yerləşdiyi dağlıq əraziyə avtomobil yolu, elektrik və su xətləri çəkilmiş, iaşə xidməti üçün əlverişli şərait yaradılmışdır. Daş karxanalarında əvvəlcə kəşfiyyat xarakterli qazıntı işləri aparılır və daş kəsilərək nümunə götürülüb keyfiyyəti yoxlanılır. Sonra isə blok şəklində kəsilən daşlar ağırtonnajlı maşınlarla Şahtaxtı stansiyasına daşınıb yük vaqonları ilə istehsal müəssisələrinə göndərilir. Kiçik daş parçaları isə Qarabağlar daş karxanasının yaxınlığında 2011-ci ilin əvvəlində istifadəyə verilmiş istehsal müəssisəsinə daşınıb müxtəlif çeşiddə tikinti materialları istehsal edilir. Onu da qeyd edək ki, sovetlər dönəmində partlayış üsulu ilə yataqlardan qoparılan sal daşlar xammal şəklində vaqonlara yüklənib ittifaqın ayrı-ayrı şəhərlərinə daşınıb istehsal olunurdusa, indi müasir texnoloji avadanlıqlardan istifadə etməklə kəsilən sal daşlar blok şəklində Naxçıvan şəhərində və Araz kəndində fəaliyyət göstərən istehsal müəssisələrinə göndərilir.

Babək rayonunun Araz kəndi yaxınlığında yerləşən istehsal müəssisəsi son illər muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri nəticəsində yerli tikinti materiallarına olan tələbatın ödənilməsi zərurətindən yaradılmışdır. İstehsal sahəsi üçün zəruri avadanlıqların alınması və tikinti-quraşdırma işlərinin aparılması məqsədilə Sahibkarlığa Kömək Fondundan dövlət maliyyə dəstəyi göstərilmişdir. İtaliya və Türkiyədən alınmış müasir texnoloji avadanlıqların quraşdırıldığı və 5000 kvadratmetr tikili ərazisi olan istehsal müəssisəsi 2005-ci ildə fəaliyyətə başlamışdır. Gündəlik istehsal gücü 1000 kvadratmetr olan müəssisədə keyfiyyətli travertin istehsal olunur.

Muxtar respublikada aparılan genişmiqyaslı quruculuq tədbirləri nəticəsində müəssisənin istehsal etdiyi məhsullara tələbatın daha da artdığını bildirən "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" MMC-nin direktoru Zeyqəm Rəhimov dedi ki, diyarımızın təbii sərvətlərindən daha səmərəli istifadə etmək üçün 2010-cu ilin oktyabr ayında Naxçıvan şəhərində travertin və mərmər emalı üzrə ixtisaslaşmış yeni istehsal müəssisəsi fəaliyyətə başlamışdır. Qarabağlar və Çalxanqala kəndləri ərazilərindəki zəngin yataqlardan çıxarılan travertin və mərmər daşlar emal üçün bu müəssisəyə gətirilir. Məhsul buraxılışında istifadə edilən daşlar təbii olaraq antibakterial keyfiyyətə malikdir. Müəssisədə Türkiyə istehsalı olan "Sesemak" markalı avadanlıqlar quraşdırılmışdır. Böyük və kiçikölçülü travertin plitələrdən, əsasən, binaların fasadının və həyətyanı sahələrin bəzədilməsində, mozaik travertinlərdən isə müxtəlifnaxışlı bəzək üzlüklərinin hazırlanmasında istifadə olunur. Gündəlik maksimum istehsal gücü 2000 kvadratmetr olan müəssisədə klassik ağ və qara suyollu travertin məhsulları ilə yanaşı, Naxçıvan sədəfi və qara inci mərmər də istehsal edilir. Həmçinin müəssisədə dekorasiya sexi də fəaliyyət göstərir. Burada kompüterlə idarə olunan müasir texnoloji avadanlıqlar quraşdırılmışdır. Müəssisəyə verilən hər hansı bir sifarişə uyğun travertinin üzərində oyma üsulla naxışlar salınır.

"Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" MMC-də yerli xammaldan səmərəli istifadə olunmaqla istehsal edilən tikinti materialları muxtar respublikamızda aparılan quruculuq tədbirlərinin daha geniş vüsət almasına imkan verir, müasir memarlıq üslubu ilə neçə-neçə binaları bəzəyir. Eyni zamanda cəmiyyət əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynamış, 480 nəfər daimi işlə təmin olunmuşdur. Müəssisənin istehsal etdiyi məhsullara olan tələbatı ödəmək, sifarişləri vaxtında və keyfiyyətlə yerinə yetirmək məqsədilə kollektiv mövcud imkanlardan səmərəli istifadə etməyə çalışmış, cari ilin ötən dövründə 976 min manatlıq məhsul istehsal edilib sifarişçi şirkətlərin ünvanlarına göndərilmişdir.

Müəssisədə istehsal olunan məhsulların xarici bazarlara çıxarılması da mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılmışdır. Bu məqsədlə Bakı şəhərində və xarici ölkələrdə keçirilən biznes-forumlarda müəssisə nümayəndəsinin iştirakı və beynəlxalq sərgilərdə müəssisədə istehsal olunan məhsulların nümayişi təmin edilmiş, nəticədə, məhsullar xarici şirkətlərin marağına səbəb olmuşdur. Həyata keçirilən kompleks tədbirlər öz bəhrəsini vermiş, ötən il "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal olunan məhsullardan sifarişə uyğun olaraq Gürcüstan Respublikasına da göndərilmişdir. Məhsulların digər xarici ölkələrə də ixrac olunması planlaşdırılır.

**Kərəm HƏSƏNOV**

*Azərbaycan tarixində folkloru, elmi, incəsənəti, memarlığı, hərb sənəti, dövlətçiliyi və digər sahələri ilə seçilən qədim Naxçıvan diyarının müxtəlif dövrlərdə özünəməxsus ədəbi mühiti də mövcud olmuşdur. Ədəbiyyatımıza Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi kimi nəhəng simalar bəxş edən Naxçıvan ədəbi mühitinin Məmməd Araz, İslam Səfərli, Hüseyn İbrahimov, Adil Babayev, Müzəffər Nəsirli, Hüseyn Razi, Əliyar Yusifli kimi görkəmli qələm sahibləri də öz yaradıcılıq dəst-xətləri ilə seçilmiş və ədəbiyyatımızda iz qoymuşlar.*

Naxçıvan Muxtar Respublikası – 90

# Muxtariyyət dövrünün ədəbiyyatı

Naxçıvanın muxtariyyət statusu elan olunandan 4 il sonra – 1928-ci ildə Bakıda fəaliyyət göstərən Azərbaycan Proletar Yazıçılar Cəmiyyətinin "Gənc qələmlər" Ədəbi Birliyinin Naxçıvan filialı yaranır. Həmin dövrdə Naxçıvanda Əvəz Sadıq, Abbas Gülməmmədov, Əyyub Abbasov, Məşdi Babayev və digər gənc ədəbiyyat həvəskarları həmin filial ətrafında cəmləşir və vaxtaşırı öz yazılarını oxuyub müzakirə edir, ədəbi söhbətlər aparırlar. Ədəbiyyat tariximizdə "Gənc qələmlər" təşkilatının filialı yaranana qədər Naxçıvanda "Qönçeyi-ülfət", "Əncüməni-şüəra" və "El güzgüsü" ədəbi məclislərinin fəaliyyət göstərməsi barədə faktlar mövcuddur. Naxçıvanın muxtariyyət statusu əldə etməsindən düz on il sonra – 1934-cü ildə Bakıda yaradılan Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan ədəbi mühitinə də təsir göstərir və Naxçıvanda bir ədəbi canlanma nəzərə çarpır. 30-cu illərin ortalarından etibarən Azərbaycan Yazıçılar İttifaqının Naxçıvan filialı fəaliyyətə başlayır. 30-cu illərin sonlarına yaxın İslam Səfərli, Adil Babayev, Müzəffər Nəsirli kimi gənc şairlərin ilk şeirləri mətbuatda dərc olunur. 1929-cu ildə "Şərq qapısı"nda "Sələsülü" imzası ilə ilk şeri çap olunan Müzəffər Nəsirli 1938-ci ildə ilk şeirlər kitabını çap etdirir. Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan M.İbrahimovun, S.Rəhimovun və Ə.Vəliyevin 30-cu illərdə Naxçıvanda yaşayıb müxtəlif vəzifələrdə çalışmaları (M.İbrahimov Naxçıvan MTS-i yanında siyasi şöbə müdiri və həmin şöbənin "Sürət" qəzetinin redaktoru, S.Rəhimov 1936-1937-ci illərdə Şahbuz və Şərur rayonlarında raykomun birinci katibi, Ə.Vəliyev 1934-1935-ci illərdə "Şərq qapısı"nın redaktoru) həmin dövrdə Naxçıvan ədəbi mühitinin inkişafına müsbət təsir göstərmişdir.

1941-1945-ci illər müharibəsinin başlanması ilə həmin ədəbi qüvvələrin və bir çox digər istedadlı gənclərin səfərbər olunub orduya aparılması Naxçıvan ədəbi mühitinin zəifləməsi ilə nəticələnmişdir. Müharibədən sonrakı 40-50-ci illər Azərbaycan ədəbiyyatının formalaşmasında Naxçıvan ədəbi mühitindən pərvazlanmış İslam Səfərli, Adil Babayev, Yusif Axundov, Məmməd Əkbər, Tağı Axundov, Əbil Yusif, Müzəffər Nəsirli, Əvəz Sadıq, Nağı Nağıyev, Əbülfəz Bağırov, Əkbər Əkbərov, Hüseyn İbrahimov, Məmmədəli Tarverdiyev, Əbülfəz Abdullayev, Hüseyn Razi, Əliyar Yusifli, Hüseyn Əzim, Həsən Mehdiyev, Əkbər Məftun, Məmməd Əsgərov, Həsən Salmanov, Davud Ordubadlı, Həsən Fətullayev kimi şair və yazıçıların çox böyük xidmətləri olmuşdur. Xüsusilə müharibə dövrü ədəbiyyatının yaradılmasında bu qələm sahibləri qələmlərini süngüyə çevirib bu mövzuda yaddaqalan əsərlər yaratmışlar. 1953-cü ildə Naxçıvan yazıçılarının ilk "Səadət mahnıları" almanaxı çap olunmuşdur.

Müharibədən sonra, 1945-1951-ci illərdə, Azərbaycan Yazıçılar İttifaqının Naxçıvan filialına yazıçı Nağı Nağıyevin rəhbərlik etdiyi dövrdə və sonrakı 1951-1960-cı illərdə ayrı-ayrı vaxtlarda Müzəffər Nəsirlinin və Hüseyn İbrahimovun rəhbərliyi dövründə, eyni zamanda Müzəffər Nəsirlinin rəhbərlik etdiyi 60-70-ci illərdə ədəbiyyata bir sıra yeni ədəbi qüvvələr gəlmiş, Naxçıvan ədəbi mühitinin formalaşmasında onların xüsusi rolu olmuşdur. Həmin illərdə Naxçıvan ədəbi mühitində müxtəlif yazıları çap olunan qələm sahiblərindən Zeynal Vəfa, Əhməd Mahmud, Məşkur Əkbər, Adil Qasımov, Kəmalə Ağayeva, Elmira Qasımova, Həmid Arzulu, Validə Hüseynova, Elmi Əliyev, Altay Tağızadə və digərləri Naxçıvan filialı ətrafında birləşsələr də, onların yazıları artıq Azərbaycanın mərkəzi qəzet və jurnallarında da çap olunmaqda, imzaları tanınmaqda idi.

1958-ci ildə Naxçıvanda Azərbaycan Yazıçılar İttifaqının səyyar plenumunun keçirilməsi, o plenumda bölmənin Azərbaycan Yazıçılar İttifaqının Naxçıvan Şöbəsi adlanması, Rəsul Rza, Mehdi Hüseyn kimi görkəmli yazıçıların iştirak etdiyi həmin plenumda Naxçıvan ədəbi mühitindən Hüseyn Razi, Əliyar Yusifli, Əhməd Mahmud, Məşkur Əkbər və Kəmalə Ağayevanın SSRİ Yazıçılar İttifaqına üzv qəbul edilməsi o dövr üçün çox mühüm ədəbi hadisə idi.

Naxçıvan ədəbi mühitində inkişaf və canlanma nöqteyi-nəzərindən ən çox diqqəti cəlb edən dövr ötən əsrin 70-ci illəri hesab olunur. 60-cı illərdə Kəmalə Ağayeva, Həmid Arzulu, Adil Qasımov, Validə Hüseynova, Həsən Valeh, Elmira Qasımova, Altay Tağızadə kimi qələm sahiblərinin imzaları diqqəti cəlb edirdisə, 70-ci illərin əvvəllərindən etibarən yuxarıda adları çəkilən qələm sahibləri ilə yanaşı, Elman Həbib, Əhməd Sədərəkli, Güllü Məmmədova, Akif Axundov, Vaqif Məmmədov, Muxtar Qasımzadə, Asim Yadigar, Novruz Nehrəmli, Bayram İsgəndərli, Əbülfəz Muxtaroğlu, Vaqif Kərimov, Rafiq Babayev, Rahilə Elçin, Dilsuz Dünyamalıyev, İbrahim Yusifoğlu, Məmməd Tahir, Budaq Təhməz, Həsənəli Eyvazlı, Cavanşir Eloğlu, Abbasqulu Mirzəyev və bir çox digərləri mətbuatda ardıcıl olaraq çıxış edir və imzaları ilə diqqəti cəlb edirdilər. Az sonra, 70-ci illərin sonu, 80-ci illərin əvvəllərindən etibarən isə Naxçıvan ədəbi mühitində Xanəli Kərimli, Kəmaləddin Qədim, Səhlab Məmmədov, Allahverdi Aqil, Nəriman Zeynalzadə, Telman Qəhrəmanov, Elbəyi Maqsudov, Zeyqəm Vüqar, Rafiq Oday, İlyas Fərəməzoğlu, Sərdar Zeynal, Nadir Əlincə, Kəmalə Nəsrin, Səyyad Əzizoğlu, Sərvər Məsum, Ələddin Eyvazov, Maarif Təmkin, Ələsgər Nehrəmli, Hüseyn Bağıroğlu, Mətanət Hüseynxanqızı kimi istedadlı ədəbi gəncliyin imzalarına rast gəlirik. Onların şeir və hekayələri, bədii-publisistik yazıları müxtəlif illərdə çap olunmuş "Odlu ürəklər", "Arazın işıqları", "Arazın nəğmələri", "Arpaçayı aşdı-daşdı", "Araz-1", "Araz-2", "Araz-3", "Araz-4", "Yaşıl pöhrələr", "Qoy tanısın dünya səni" adlı ədəbi almanaxlarda çap olunmuşdur. Sevindirici haldır ki, adları qeyd olunanlarla yanaşı, son illərdə müxtəlif nəşriyyatlar tərəfindən Əbülfəz Əsgərli, Fərəc Fərəcov, Firudin Süleymanoğlu, Şirməmməd Qüdrətoğlu, Ədalət Kərimli, Nadir Əlincə və digər qələm dostlarımızın da xeyli sayda kitabları çap olunmuş, həmin kitabların bir çoxu oxucular tərəfindən maraqla qarşılanmışdır.

Adları qeyd olunan qələm dostlarımızın ədəbi estafetini davam etdirən müasir istedadlı gənclər sırasında isə Qafar Qərib, Elxan Yurdoğlu, İlqar Qulusoy, Zaur Vedili, Rahil Tahirli, Tural Həsənli, Elnur Kəlbizadə, Tural Ataş, Sərxan Yaqub, Əzizə Həsənova, Ruhəngiz Əliyeva, Zeynəb Naxçıvanlı, Gülsadə İbrahimli, Məftunə Hüseynbəyli, İman Əlioğlu, Lamiyə İsazadə və onlarla digərlərinin adlarını çəkmək olar ki, bu gənclərin də Naxçıvan ədəbi mühitinin gələcək inkişafında müəyyən rol oynayacaqları şəksizdir. Bu ədəbi qüvvələrin imzalarının tanınmasında əvvəldə adı çəkilmiş almanaxlarla yanaşı, sonrakı illərdə çap olunmuş "Tərənnüm", "Səhər nəğmələri", "Çinar ömrü -1", "Çinar ömrü -2", "Çinar ömrü -3" ədəbi almanaxlarının da müəyyən qədər rolu olmuşdur.

Şübhəsiz ki, ədəbi mühit haqqında bəhs edərkən həmin mühitin içində olan, müəyyən zamanlarda onun istiqamətləndirilməsində əmək sərf etmiş ədəbiyyatşünas və tənqidçilərin də adlarını çəkməyə bilmərik. Bu sahədə Məmməd Cəfər Cəfərov, Yavuz Axundlu, İsa Həbibbəyli, Sevindik Vəliyev, Məhərrəm Cəfərli, Əbülfəz Amanoğlu, Hüseyn Həşimli, Adil Bağırov, Əsgər Qədimov, Fərman Xəlilov, Seyfəddin Eyvazov, Əbülfəz Əzimli, Elbəyi Maqsudov, Akif İmanlı, Sədaqət Həsənova, İman Cəfərov, Arif Ağalarov və digərlərinin xidmətləri danılmazdır. Onlar ayrı-ayrı vaxtlarda Naxçıvan ədəbi mühitini əks etdirən kitab və məqalələr çap etdirmiş, bu sahədə imkanları daxilində xidmət göstərmişlər.

Naxçıvan ədəbi mühiti, həmin mühiti özündə birləşdirən Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi dövlətin daimi qayğı və diqqəti ilə əhatə olunmuş, xüsusilə son 15-20 il ərzində bu diqqət daha da artırılmışdır. Hazırda Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi ətrafında 80 nəfərə yaxın üzv fəaliyyət göstərir. İstedadlı gənc şair və yazıçıların kitablarının dövlətin diqqət və qayğısı ilə çap olunması artıq ənənə şəklini almışdır.

***Yuxarıda qeyd olunanlar muxtariyyət dövründə Naxçıvan ədəbi mühitinə qısa bir baxış idi. Naxçıvan ədəbi qüvvələri böyük bir ziyalı potensialı olmaqla tariximizi ədəbiyyatda əks etdirmək funksiyasını yerinə yetirir. Bu ənənələrin bundan sonra da uğurla davam etdiriləcəyini əminliklə qeyd etmək olar.***

**Vaqif MƏMMƏDOV**
*Azərbaycan Yazıçılar Birliyinin üzvü, tarix üzrə fəlsəfə doktoru, dosent*



*Azərbaycanımızın ayrılmaz tərkib hissəsi olan Naxçıvanla Gürcüstan arasında tarixən müxtəlif əlaqələr, xüsusən də ticarət, təhsil və mədəniyyət əlaqələri olmuşdur. Tarixi mənbələrdə qeyd olunur ki, Naxçıvan xanlığının yaradıcısı olan Heydərqulu xan Kəngərli Gürcüstanın Kartli-Kaxetiya çarlığı ilə hərbi münasibətlər qurmuş, Acarıstanla Naxçıvan arasında mövcud olmuş siyasi-mədəni əlaqələr XVIII əsrin ortalarından daha da inkişaf etməyə başlamışdır.*

Naxçıvanlı diplomatlar

# Naxçıvanın Gürcüstan SSR-dəki nümayəndəsi

1916-cı ilə aid sənədlərdə naxçıvanlı yazıçı Əli Səbri Qasımovun Batumidə müsəlman-qaçqın cəmiyyətinin üzvü kimi çox fəal iştirakı öz əksini tapmışdır. Hətta yazıçı öz xatirələrində yazır ki, Batumidən Trabzona qədər ərazidə yaratdığımız xeyriyyə cəmiyyətinin fondundan müsəlman qaçqınlarına müxtəlif yardımlar göstərirdik. Naxçıvanlı digər bir şair – Ələkbər Qərib də bu cəmiyyətdə təmsil olunmuşdur. Araşdırmalardan məlum olur ki, həmin illərdə həmyerlimiz polkovnik İbrahim bəy Qədimov Ərdəhan və Batumidə hərbi fəaliyyət göstərmiş, zorakılığa məruz qalan dinc müsəlmanların mənafeyini qorumuşdur. Eyni zamanda XIX əsrin sonu, XX əsrin əvvəllərində naxçıvanlı milyonçu Mirzə Heydər Nəsirbəyovun Batumi ilə yaxından ticarət əlaqələri olmuşdur. Həmin vaxt Acarıstanın pambığa olan tələbatının bir hissəsi Naxçıvan pambığı ilə ödənilmiş, bu və digər məhsullarımız Batumidən Trabzona aparılmaqla Avropa bazarlarında da satılmışdır.

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra da bu əlaqələr müxtəlif səviyyələrdə davam etmişdir. Naxçıvan tarixinin ən kəşməkəşli dövrlərindən biri hesab edilən 1920-1924-cü illərdə isə bir müddət Naxçıvan SSR-in İran və Türkiyə kimi qonşu dövlətlərlə yanaşı, artıq Sovet hakimiyyətinin qurulduğu Qafqaz respublikalarında da nümayəndəlikləri fəaliyyət göstərmişdir. Səid Sadıqov "Naxçıvan Muxtar Respublikası tarixindən" kitabında yazır ki, XX əsrin 20-ci illərində Naxçıvanın Bakı, Tiflis və İrəvan şəhərlərində nümayəndəlikləri yaradılmışdır. 1922-ci ilin yanvar ayında Naxçıvan SSR-in Gürcüstanda nümayəndəsi təyin edilən şəxs isə tənqidçi, ədəbiyyatşünas, tərcüməçi kimi tanıdığımız Əziz Şərif olmuşdur.

1895-ci il martın 28-də Naxçıvan şəhərində anadan olan Əziz Şərif Məhəmməd Tağı Sidqinin Naxçıvanda açdığı "Məktəbi-tərbiyə"də təhsil almış, burada oxuduğu dövrdə qismən fars və rus dillərinə yiyələnmişdir. Sonra isə o, təhsilini Cəlil Məmmədquluzadənin Tiflisdə açdığı pansion məktəbində davam etdirmiş, pansion bağlandıqdan sonra Tiflisdə bir rus ailəsində yaşamış və məhz bu dövrdə rus dili ilə yanaşı, fransız dilini də öyrənmişdir. Əziz Şərif "Keçmiş günlərdən" adlı xatirələrində bu barədə yazır: "Tiflisdə pansion bağlananda Mirzənin (Cəlil Məmmədquluzadə – E.K.) məsləhəti və köməyi ilə atam məni bir rus ailəsinə tapşırdı. Bu ailə üç qadından ibarət idi, evləri də Mixaylovski küçəsindəki Müctəhid bağının yaxınlığında idi. Qoca qadın iki müəllimə qızı ilə yaşayırdı. ...Rus qadınlar mənimlə həm rusca, həm də fransızca danışırdılar. ...Yadımda qalan budur ki, bu müddətdə mən rusca və fransızca xalis danışmağı, bu dilin ikisində də sərbəst yazıb-oxumağı öyrənmişdim".

Əziz Şərifin qeydlərindən o da aydın olur ki, o, 1906-cı ilin yazına qədər Tiflisdə qalmış, 1905-ci ildən başlayaraq çarizmin dəstəyi ilə ermənilərin Azərbaycanın müxtəlif şəhərlərində, o cümlədən Naxçıvanda azərbaycanlılara qarşı törətdikləri qanlı qırğınlar onun Naxçıvana qayıtmasına səbəb olmuşdur. Sonralar o, bir müddət təhsilini İrəvanda İbadulla bəy Muğanlinski və Cabbar bəy Məmmədovun pansionunda davam etdirmişdir. 1908-ci ildə yenidən Tiflisdə oxumağa başlayan Əziz Şərif 1915-1917-ci illərdə Moskva Kommersiya İnstitutunda təhsil almış, beləliklə, fransız, rus, fars, gürcü dillərini öyrənmişdir.

I Dünya müharibəsinin sonuna yaxın Qafqazda yaranmış gərgin ictimai-siyasi vəziyyət Naxçıvana da təsirsiz ötüşməmişdir. 1917-ci ildə Naxçıvana qayıdan Əziz Şərifin bu hərc-mərcliyin qarşısının alınmasında xidmətləri olmuşdur. Fəxrəddin Cəfərov "Naxçıvan qəza polisi (1828-1920-ci illər)" kitabında Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin sənədlərinə əsasən göstərir ki, Əziz Şərif 1917-ci ilin axırlarında Naxçıvan fəhlələrindən və kəndlilərindən ibarət "Qırmızı qvardiya" təşkil etmişdir.

1918-ci ilin yanvarında Naxçıvanda Fəhlə və Əsgər Deputatları Sovetinin İcraiyyə Komitəsinin sədri olmuş Əziz Şərif bu dövrdə Zaqafqaziya Komissarlığına Naxçıvanda vəziyyəti stabilləşdirmək üçün bir sıra məktublar yazmış, hətta mövcud vəziyyəti Zaqafqaziya Komissarlığına çatdırmaq məqsədilə Naxçıvan nümayəndəsi kimi hələ o zaman Tiflisə getmişdir.

Görünür, XX əsrin 20-30-cu illərində Tiflisdə mətbuat və nəşriyyat sahəsində çalışan Əziz Şərifin Gürcüstan mühitinə yaxşı bələd olması, Tiflisdə müxtəlif ziyalılarla əlaqələrinin genişliyi, fransız, rus, fars dillərini mükəmməl bilməsi məhz ona Naxçıvan SSR-i təmsil etmək səlahiyyətinin həvalə edilməsinin əsas səbəbləri olmuşdur.

*Beləliklə, Azərbaycan SSR-i İbrahim Əbilov, Rza Təhmasib və digər diplomatların Ankarada, Naxçıvan SSR-i Qasım bəy Camalbəyovun Təbrizdə, İsmayıl bəy Camalbəyovun Makuda, Balabəy Əlibəyovun Qarsda təmsil etdiyi bir dövrdə Əziz Şərif Naxçıvan SSR-in Tiflis nümayəndəsi olmuşdur.*

**Elnur KƏLBİZADƏ**

## Elmi-praktik konfrans

*Naxçıvan Müəllimlər İnstitutunda Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyi ilə əlaqədar elmi-praktik konfrans keçirilmişdir.*

Konfransı giriş sözü ilə açan institutun rektoru, professor Oruc Həsənli qeyd etmişdir ki, Abbasqulu ağa Bakıxanov XIX əsrin birinci yarısında təşəkkül tapan Azərbaycan maarifçiliyinin əsas nümayəndəsi sayılmaqla Azərbaycan ədəbiyyatı tarixinə ensiklopedik biliyə malik görkəmli tarixçi, coğrafiyaşünas, astronom, şair və nasir kimi daxil olmuşdur. A.Bakıxanov elmi yaradıcılığa 1828-ci ildə qələmə aldığı "Qanuni-Qüdsi" adlı elmi əsəri ilə başlamışdır. O, müəllim və şagirdlər üçün məktəblərdə dərsliklərin azlığını nəzərə alaraq bu əsəri yazmış, şagirdlərin dil qanunlarını daha yaxşı yadda saxlaması üçün gətirdiyi misalların çoxunu şeir parçaları ilə təqdim etmişdir.

Vurğulanmışdır ki, A.Bakıxanov şair və nasir olmaqla yanaşı, pedaqogika məsələləri ilə də məşğul olmuşdur. Onun "Təhzibül-əxlaq" və "Kitabi-Əsgəriyyə" adlı əsərlərində diqqətə çatdırmaq istədiyi əxlaqi və pedaqoji məsələlər Azərbaycan pedaqoji fikrinin və uşaq ədəbiyyatının təşəkkülündə əsaslı rol oynamışdır.

Ümumiyyətlə, A.Bakıxanovun bədii irsi, əsasən, "Mişkatül-ənvar" adlı farsca külliyyatından, "Riyazül-qüds", "Miratül-cəmal", "Kitabi-Əsgəriyyə", "Təbriz əhlinə xitab" əsərlərindən, Azərbaycan, fars və ərəbcə şeirlərdən ibarət "Divan"ından, mənzum hekayə və təmsillərindən ibarətdir.

Sonra institutun Dillər və ədəbiyyat kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Əbülfəz Əzimlinin "Abbasqulu ağa Bakıxanovun həyat və yaradıcılığı", filologiya elmləri doktoru Yusif Səfərovun "Abbasqulu ağa Bakıxanovun elm və təhsillə bağlı fəaliyyət və fikirləri" mövzularında məruzələri dinlənilmişdir.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

## “Naxçıvan – bəşəriyyətin beşiyi” II Beynəlxalq Rəsm Festivalının iştirakçıları Naxçıvanın gəzməli-görməli yerləri, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olublar





Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş “Naxçıvan – bəşəriyyətin beşiyi” II Beynəlxalq Rəsm Festivalında iştirak etmək üçün bir qrup rəssam Naxçıvan Muxtar Respublikasına gəlib. Dünyanın müxtəlif ölkələrindən rəssamların qatılacağı festivalda rəssamlar sərbəst mövzuda açıq səma altında rəsmlər çəkəcəklər.

Dünən Naxçıvanın qonağı olan sənət adamları üçün gəzinti təşkil edilib. Qonaqlar əvvəlcə ulu öndər Heydər Əliyevin şəhərimizdəki abidəsini ziyarət edib, abidə önünə gül dəstələri qoyublar. Sonra rəssamlar Heydər Əliyev Muzeyinə gələrək buradakı eksponatlarla tanış olub, dahi rəhbərimizin həyat yolu və fəaliyyəti haqqında ətraflı məlumat alıblar.

Həmin gün fırça ustaları Naxçıvan Dövlət Xalça Muzeyi və Naxçıvan Dövlət Tarix Muzeyində də olublar. Günün ikinci yarısında qonaqlar Açıq Səma Altında Muzey, Möminə xatın türbəsi, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyi, Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olublar, Əshabi-Kəhf ziyarətgahını ziyarət ediblər.

Qeyd edək ki, bu gün “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində “Naxçıvan – bəşəriyyətin beşiyi” II Beynəlxalq Rəsm Festivalının açılış mərasimi olacaq.

**Sara ƏZİMOVA**

***Naxçıvanın qədim sənətkarlıq sahələrindən birini dulusçuluq təşkil edir. Gilin xüsusi formaya salınaraq bişirilməsi ilə bağlı olan bu sənətkarlıq sahəsinin tarixi Naxçıvanda Neolit dövründən (e.ə. VII minillikdən) başlayır və bu gün də öz inkişafını uğurla davam etdirir. Dulusçuluqda gil qabların düzəldilməsi zamanı bir neçə proses həyata keçirilir.***

*Xalq yaradıcılığı*

## Naxçıvanın qədim sənətkarlıq sahəsi dulusçuluğun tarixindən



İlk olaraq, qabların hazırlanması üçün yararlı olan keyfiyyətli qum seçilir. Çünki yüksəkkeyfiyyətli gildən hazırlanmış qablar daha çox yararlı və uzunömürlü olurlar. Gildən yoğrulmuş qabları müəyyən formaya salarkən onların simmetriyasına diqqət edilir. Qabı müəyyən formaya saldıqdan sonra bişirilmə prosesi zamanı çatlamaqdan qorumaq üçün xüsusi üsullardan istifadə edilir. İlk olaraq, qabı əvvəlcə bir neçə gün kölgə yerdə, sonra isə Günəş altında qurudurlar. Sonra qabın bişirilməsinə başlanılır. Bişirilmə zamanı gilin tərkibindəki dəmir birləşmələri oksidləşdirici alovun təsirindən müxtəlif rənglərə çevrilərək qabların boz, çəhrayı, qara və sair rənglərdə olmasına səbəb olur. Qabların üzərinin rənglənməsində boyaq bitkilərindən və müxtəlif minerallardan da istifadə edilir. Marqans oksidindən şabalıdı, mis oksidindən yaşıl, dəmir oksidindən sarı, kobalt oksidindən mavi rənglər alınır.

Qabların düzəldilməsi və bişirilməsi prosesindən sonra onların üzəri müəyyən ornamentlərlə naxışlanır. Naxışlanmada istifadə olunan ornamentlər həndəsi, nəbati, antropomorf, zoomorf olmaqla bir neçə qrupa bölünür. Həndəsi ornamentlər sadə və mürəkkəb quruluşludur. Sadə həndəsi ornamentlər içərisində dalğalı, düz və sınıq xətlər daha çox yayılmışdır. Mürəkkəb həndəsi ornamentlər dairə, romb, dördbucaq və üçbucaqların kombinasiyasından ibarətdir. Qabların üzərinin naxışlanmasında basma, cızma, çərtmə və digər üsullardan istifadə olunur.

Dulusçuluqda da hər bir dövrün xarakterik xüsusiyyətləri özünü göstərir. Neolit və Eneolit dövründə gil qablar saman qarışığı olan gildən açıq-çəhrayı, qırmızı, bəzən isə boz rəngdə düzəldilmişdir. Tunc dövründən başlayaraq qabların hazırlandığı gilin tərkibinə iri və ya xırda qum dənələri qatılaraq onların keyfiyyəti daha da artırılmışdır. Erkən Tunc dövründə Eneolit dövrünün naxışlanma üsul və formaları qorunub saxlanılsa da, Naxçıvan dulusçuları tərəfindən yeni naxışlanma motivlərindən də istifadə olunmuşdur. Bu dövrdə qabların naxışlanmasında oval və ya yuvarlaq batıqlardan, spiralvarı rəsmlərdən, “S”, “L”, “M”, “Y” şəkilli işarələrdən geniş istifadə olunmuşdur. Orta Tunc dövründə dulus çarxından geniş istifadə edilməsi nəticəsində əmək məhsuldarlığı yüksəlmiş, məhsul istehsalının intensivliyi artmış, bu sənətkarlıq sahəsi müstəqil təsərrüfat sahəsinə çevrilmişdir.

Naxçıvan Boyalı qablar mədəniyyətinin əsas mərkəzlərindən biri olmuşdur. II Kültəpə abidəsindən tapılan dulusçuluq məhəlləsi və mükəmməl quruluşlu dulus kürələri Orta Tunc dövründə II Kültəpənin Naxçıvanın mühüm dulusçuluq mərkəzi olduğunu göstərir. Naxçıvan dulusçuları tərəfindən Son Tunc, Erkən Dəmir, Antik, Orta əsrlər və sonrakı dövrlərdə də öz orijinallığı ilə seçilən gil qablar düzəldilmişdir. İlk orta əsrlərin sonlarından başlayaraq Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da dulusçuluq istehsalı daha yüksək səviyyəyə çatmışdır.

Bu dövrdə müxtəlif dulusçuluq mərkəzlərində şirli qablar istehsalına başlanması, dulus kürələrinin kütləvi şəkildə tətbiq edilməsi keyfiyyətli saxsı məmulatının istehsalı üçün daha əlverişli şərait yaratmışdır. Dulusçuluq sənətinin meydana gələrək inkişaf etməsi yeni-yeni məişət qablarının xalqın gündəlik həyatına daxil olmasına səbəb olmuşdur. Bütün dövrlərdə qabların üzərinin müxtəlif ornamentlərlə naxışlanmasında dulusçuların bu sahədəki sənətkarlıq qabiliyyəti ilə yanaşı, düşüncə tərzi, milli-mənəvi dəyərlərimizi özündə əks etdirən motivlər, real həyat hadisələri ilə bağlı səhnələr mühüm yer tutur. Belə maraqlı gil qablardan birini Qızılburun abidəsindən əldə olunmuş Orta Tunc dövrünə aid (e.ə. III minillik) üzərində boyalı həndəsi naxışlarla birlikdə qarşı-qarşıya dayanmış insan rəsmləri təşkil edir. Rəsmdə insanın qolları dirsəkdən bükülmüş, əllərindən biri yuxarı qalxmış, digər əli yanındakının dizi üzərinə qoyularaq milli dəyərlərimizin tərkib hissəsi olan musiqimiz – qədim yallı rəqsimiz əks olunmuşdur. Naxçıvan dulusçuları tərəfindən yaradılan qədim tariximizi, zəngin mədəniyyətimizi özündə əks etdirən bu tip qablar çoxdur. Onların hər birinin maddi-mənəvi dəyərlərimizin öyrənilməsində elmi əhəmiyyəti böyükdür.

Dulusçuluğun tarixi ilə bağlı aparılan araşdırmalar zamanı arxeoloji abidələrdən əldə olunmuş çoxsaylı və çoxçeşidli gil qab nümunələri, onların istehsal texnologiyası, forma və bəzək-naxış elementləri, rəngi Naxçıvanda dulusçuluq sənətinin qədim ənənələr əsasında inkişaf edərək dövrümüzədək öz əhəmiyyətini saxladığını göstərir. Naxçıvan dulusçuları tərəfindən düzəldilən qablar orijinallığı, bədii-estetik xüsusiyyətləri ilə dünyanın dulusçuluq məhsulları içərisində seçilir. Dünya sənətkarlığında Naxçıvan dulusçuluq sənətinin özünəməxsus yeri vardır.

**Toğrul XƏLİLOV**
***tarix üzrə fəlsəfə doktoru***

*Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyində Xalq yazıçısı Hüseyn İbrahimovun 95 illik yubileyi münasibətilə tədbir keçirilmişdir.*

## Xalq yazıçısının yubileyi qeyd edilib

Tədbiri giriş sözü ilə muzeyin direktoru Aləmzər İbrahimova açaraq qeyd etmişdir ki, Xalq yazıçısı Hüseyn İbrahimov XX əsr Naxçıvan ədəbi mühitinin yetişdirdiyi söz sənətkarlarından biridir. Vurğulanmışdır ki, onun “Sabahın sorağında”, “Günəş doğan yerdə”, “Bahar yağışı”, “Əsrin onda biri”,”Böhtan” adlı irihəcmli əsərləri geniş oxucu kütləsinin sevə-sevə oxuduğu əsərlərə çevrilmişdir. Yazıçının “Ölməz mahnılar” kino-povesti, “İtirilən sağlıq”, “Torpağın övladları” pyesləri, “Baharın hekayəsi”, “Qu quşları öləndə oxuyurlar” povestləri insanları mənəvi kamilliyə çağırır. Qeyd edilmişdir ki, Xalq yazıçısının müxtəlif illərdə nəşr olunmuş “Zərifənin çiçəkləri”, “Şirin xatirə”, “Nəciblik”, “Göyərçinin məhəbbəti”, “Səhv edəndə” və başqa kitabları oxucular tərəfindən maraqla qarşılanmışdır. Xalq yazıçısının bir sıra əsərləri rus, fransız, tatar və başqa dillərə də tərcümə edilmişdir.

Sonra Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar, yazıçı-publisist Əbülfəz Əsgərli, şair-publisist Vaqif Məmmədov, Azərbaycan Respublikasının xalq artisti Kamran Quliyev, şairlərdən Nazlı Hacılı, Əbülfəz Ülvi, Ələsgər Nehrəmli, Qafar Qərib, M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının əməkdaşı Südabə Süleymanova, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Əli Rzayev, Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyinin əməkdaşı Xanım İsmayılova Xalq yazıçısının ayrı-ayrı əsərlərindən söhbət açmış, ədiblə bağlı xatirələrindən danışmışlar.

Naxçıvan Dövlət Universitetinin tələbələrinin ifasında Xalq yazıçısı haqqında görkəmli yazıçı və ədəbiyyatşünasların fikirləri səsləndirilmişdir.

Sonra muzeydə təşkil olunmuş “Hüseyn İbrahimov – 95” adlı sərgiyə baxış olmuşdur.

**Əli RZAYEV**

Son illər muxtar respublika səhiyyəsində yüksəkixtisaslı mütəxəssislərin sayının artması Azərbaycan səhiyyəsinin tərkib hissəsi kimi Naxçıvan səhiyyəsinin də dünya səhiyyə sisteminə inteqrasiya olunmasına şərait yaratmışdır. Səhiyyənin müasir problemlərinin həllində mühüm rol oynayan belə mütəxəssislərin müalicə üsulları müasir tibb elminin regional inkişafına müsbət təsirini göstərir.

## Həmyerlimiz cərrahların 19-cu beynəlxalq konqresindən qayıtmışdır

Belə həkimlərdən biri – Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin cərrahı, Azərbaycan Respublikasının əməkdar həkimi, tibb üzrə fəlsəfə doktoru Cəbi İsmayılovun artıq iki dəfə beynəlxalq konfrans və konqreslərdə iştirakı, həmin tədbirlərin yekun materiallarında “Naxçıvan Muxtar Respublikasında hepatitlərin dinamikası”, “Narkozun verilməsi metodikasında yeniliklər” adlı elmi məqalələrinin dərci Naxçıvan səhiyyəsi üçün əlamətdardır. Yüksəkixtisaslı mütəxəssis bu günlərdə daha bir mötəbər məclisdə – dünya cərrahlarının 19-cu beynəlxalq konqresində iştirak etmişdir. Türkiyə Respublikasının Antalya şəhərində keçirilən konqresə dünyanın 50 ölkəsindən 3 minə yaxın nümayəndə dəvət olunmuşdur. Azərbaycan nümayəndə heyəti arasında muxtar respublikamızın yeganə təmsilçisi olan C.İsmayılov konqresdə “Ekstrahepatik öd yollarının yatrogen zədələnmələri” mövzusunda məruzə etmişdir. Bu məruzə dünyanın məşhur cərrahları olan italiyalı Franko Bozetti, ABŞ-ın Hopkins Universitetinin professoru Luis Kameron, finlandiyalı mütəxəssis Ermando Baggi və başqalarının elmi məqalələri ilə birgə kitabda öz əksini tapmışdır.

C.İsmayılov konqresin dərnəklərində də iştirak etmiş, dinləyiciləri maraqlandıran sualları cavablandırmışdır.

## Elmi-praktik seminar

***Bu gün muxtar respublikamızın səhiyyə müəssisələrində 751 həkim, 2196 orta tibb işçisi tərəfindən əhaliyə tibbi xidmət göstərilir. Onların ixtisas səviyyəsinin artırılması, bilik və bacarıqlarının dünya standartları səviyyəsinə qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir. Bu məqsədlə tibb işçilərinin Bakı şəhərinə, Türkiyə Respublikasına çoxsaylı təkmilləşdirmə kurslarına göndərilməsi, yüksəkixtisaslı mütəxəssislərin iştirakı ilə elmi-praktik konfrans və seminarların, treninq və təlimlərin keçirilməsi artıq ənənə halını almışdır.***

Naxçıvan Muxtar Respublika Xəstəxanasında öddaşının cərrahi müalicəsi, bu müalicədə anestezioloji reanimasiya yardımına dair elmi-praktik seminar keçirilmişdir.

Xəstəxananın baş həkimi Əli Ələsgərov çıxış edərək hazırda dünyada öddaşı xəstəliyindən əziyyət çəkənlərin sayının sürətlə artdığını, onun müəyyən fəsadlar yaratdığını vurğulamış, bu xəstəliklə bağlı xəstəxanaya gələnlərin sayının ötən ilin müvafiq dövrünə nisbətən 5 faiz artdığını bildirmişdir.

Xəstəxananın həkim-cərrahı, tibb üzrə fəlsəfə doktoru Etibar Bababəyli, Anesteziologiya-reanimasiya şöbəsinin həkimi Tahirə Hüseynova çıxış edərək öddaşı xəstəliyi zamanı cərrahi müdaxilə, müalicə, profilaktika və mümkün ağırlaşmalar, həmçinin xəstələnmə səviyyəsinin aşağı salınmasına dair sübutlu təbabət prinsiplərinə əsaslanmış dəqiq tövsiyələrin işlənib hazırlanması barədə çıxış etmiş, dinləyiciləri maraqlandıran sualları cavablandırmışlar.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçi-cərrahı, tibb üzrə fəlsəfə doktoru Sabir Novruzov öddaşının cərrahi müalicəsində müasir üsulların, terapevtik təlimlərin, əhali arasında səhiyyə maarifinin mühüm əhəmiyyətini qeyd etmiş, bu sahədə elmi-praktik seminar və treninqlərin mütəmadi olaraq keçiriləcəyini bildirmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

**Allah rəhmət eləsin**

Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin professor-müəllim kollektivi Şəmil Mahmudova, dayısı **SİYAVUŞUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Elnur Kəlbizadə
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 452